> **Biz gərək milli birliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyimə görə istədiyim yolu gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm.**
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli lider.**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*

# Milli birliyimiz, azərbaycançılıq məfkurəsi müstəqilliyimizin qayəsidir

**31 il əvvəl 1993-cü il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib.**

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Heydər Əliyevin təşəbbüsü ilə keçirilən qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkiliyinin və fəallığının artmasına təsir göstərdi. Bu ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.



Qurultaydan sonra ümummilli lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə həmin ölkələrdə yaşayan azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə həmvətənlilərimizlə bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması lobbi quruculuğu sahəsində Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətindən birinə çevrilmişdir. Bu isə əslində respublikamızda aparılan dövlət siyasətində ümummilli mənafelərin reallaşması deməkdir. Azərbaycan Respublikası dünya azərbaycanlıları tərəfindən milli-tarixi təkamülün bəhrəsi, milli mənliyin rəmzi, tarixi vətən anlayışının qəbul edilməsidir.

Bu gün dünyada "qloballaşma" prosesinin doğurduğu reallıqlar Azərbaycan diasporunun fəaliyyətinə də öz təsirini göstərir. İnteqrasiya prosesləri dünyanın müxtəlif regionlarında yaşayan həmvətənlərimizin daha sıx birləşməsini zərurətə çevirmişdir. Başqa sözlə desək, indi azərbaycanlıların ideya-siyasi birliyi yalnız ölkəmizin milli maraqlarından irəli gələn məsələ deyil, həm də müasir dünyada gedən ictimai-siyasi proseslərin tələbi ilə ortaya çıxan zərurətdir.

Vurğulamaq lazımdır ki, yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev ulu öndərin bu sahədəki ideyalarını uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım oldu, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynadı.

Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diaporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsində, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunmasında, bu sahədə mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Azərbaycanlıların həmrəyliyi, birliyi yönündə həyata keçirilən bu və ya digər tədbirlər öz səmərəsini verir. Belə ki, Azərbaycan diasporu beynəlxalq aləmdə milli maraqlarımızın təmin olunmasında, həqiqətlərin dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasında böyük təsir gücünə malik bir qüvvəyə çevrilmişdir. Hazırda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında həmrəyliyin möhkəmləndirilməsi, onların təşkilatlanması və güclü Azərbaycan diasporunun formalaşması respublikamızda dövlət siyasətinin mühüm istiqamətini təşkil edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli həmrəylik ideyalarının bu gün də Azərbaycan dövləti üçün öz aktuallığını saxladığını nümayiş etdirir. Bu gün Azərbaycan diasporu, böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir. Yaşadıqları ölkələrin ictimai-siyasi həyatında onların təsiri getdikcə daha artıq hiss olunur. Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, qardaş Türkiyədə Azərbaycan icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərir. Dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində komitə mühüm rol oynayır.

Bu gün xalqımızın birliyi, həmrəyliyi ölkəmizin inkişafını daha da sürətləndirib. Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində qazandığımız Zəfər həmrəyliyimizin, xalq-iqtidar birliyinin bir yumruq ətrafında birləşməyimizin bariz nümunəsidir. 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, sərkərdəlik məharəti ilə Müzəffər Ordumuz ədaləti bərpa etdi. Bu tarixi qələbə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində mühüm rol oynadı. 23 aprel 2022-ci ildə Şuşa şəhərində dünya azərbaycanlılarının V Qurultayı keçirildi. Bu qurultayın adı Zəfər qurultayıdır və bu təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşdı, qurultay keçirildi və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır.

Qurultayda çıxış edən Prezident İlham Əliyev demişdir: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq. Bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir. Hamımız üçün Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, vətən qarşısında misilsiz xidmətlər göstərmişlər". Şuşa Qurultayında ilk dəfə müzəffər xalqın təmsilçiləri bir araya gəldilər, soydaşlarımız əminliklə bildirdilər ki, onlar vahid ideya ətrafında birləşərək monolit qüvvəyə çevrilirlər...

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə həmvətənlərimizi təbrik edir, onlara birlik, həmrəylik və vahid ideya ətrafında birləşməyi arzulayırıq.

**Xaliq MƏMMƏDOV,**
**"Ağricola" şirkətinin direktoru.**